# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№386/5** **11 mart 2026-cı il**

**“Haqsız rəqabətin vəziyyətinə dair hesabat barədə”**

Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 6.2-ci “Haqsız rəqabətin vəziyyətinə dair hesabatın təqdim edilməsi” bəndinə uyğun olaraq, audit sahəsində etik normaların qorunması, qiymət dempinqinin qarşısının alınması və şəffaf rəqabət mühitinin təmin olunması məqsədilə Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr idarəsi (R.Cəfərli, A.Bayramova) tərəfindən təqdim olunmuş haqsız rəqabətin vəziyyətinə dair 2025-ci ili əhatə edən hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Haqsız rəqabətin vəziyyətinə dair hesabat” nəzərə alınsın (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr idarəsinə (R.Cəfərli, A.Bayramova) tapşırılsın ki:

2.1. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl olunmasına dair monitorinqlər mütəmadi olaraq davam etdirilsin;

2.2. Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (M.Babayev) ilə birlikdə haqsız rəqabət və dempinq hallarına dair daxil olan müraciətlərin operativ və effektiv şəkildə araşdırılması təmin edilsin və araşdırma bitdikdən sonra on gün müddətində haqsız rəqabət və dempinq hallarına yol verən auditorlar barəsində intizam və tənbeh tədbirlərinin görülməsinə dair təkliflərini Palatanın rəhbərliyinə təqdim etsinlər;

2.3. auditor fəaliyyətinə nəzarətin səmərəliliyinin artırılması, haqsız rəqabət və dempinq hallarının operativ şəkildə aşkar edilməsi və qarşısının alınması məqsədilə dövlət satınalmaları üzrə Tender Komissiyaları tərəfindən satınalmaların vahid internet portalında dərc olunan protokolların Auditorlar Palatası tərəfindən izlənilməsi və təhlil olunması üçün həmin sənədlərə baxış imkanının yaradılması barədə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciətin göndərilməsi iki həftə müddətində təmin edilsin.

3. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

3.1. “Auditorun şəxsi kabineti” sistemində auditorlar tərəfindən minimum hədlərə riayət edilməsinin monitorinqinin gücləndirilməsi məqsədilə avtomatlaşdırılmış müəyyən etmə mexanizminin tətbiqi təmin edilsin;

3.2. Auditor xidmətlərinin keyfiyyətinin idarə edilməsi mexanizmləri müasir analitik və texnoloji həllərlə təkmilləşdirilsin, təsdiq edilmiş minimum hədlərdən aşağı qiymət təqdim edən auditorlar təşkilatlarının və sərbəst auditorların keyfiyyətə kənar nəzarətə dair plandankənar monitorinqi həyata keçirilsin;

3.3. Auditorlar Palatasının internet səhifəsində “Ədalətli auditor” bölməsinin yaradılması təmin edilsin.

4. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, cari ilin 1 aprel tarixindən Palatanın üzvləri tərəfindən auditor xidmətlərinin göstərilməsinə dair “partnyorluq sazişi”nin imzalanması təmin edilsin, bu iş yeni üzvlərə münasibətdə davam etdirilsin və həmin sazişi imzalayan üzvlər barədə müvafiq məlumatlar Palatanın internet səhifəsinin “Ədalətli auditor” bölməsində yerləşdirilməsi üçün Palatanın rəhbərliyinə təqdim edilsin.

5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri Q.Bayramova və Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov) tapşırılsın ki, cari ilin 2-ci, 3-cü və 4-cü rüblərində “Auditorun səsi” platformasının həyata keçirilməsi təmin edilsin.

6. Bu qərarın və “Haqsız rəqabətin vəziyyətinə dair hesabat”ın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**